# Birinci vitse-prezident Mehriban Əliyeva "Tokio-2020" Yay Paralimpiya Oyunlarında növbəti medallar qazanan idmançılarımızı təbrik edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva "Tokio-2020" Yay Paralimpiya Oyunlarında ölkəmizə növbəti medallar qazandıran idmançılarımızı təbrik edib. AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezidentin bununla bağlı "Instagram" hesabında etdiyi paylaşımda deyilir:

"Bu günədək olan nəticələrə əsasən, Azərbaycanın 10 qızıl, 1 gümüş və 4 bürünc medalı var! Bugünkü qaliblərimizi - daha bir qızıl medal qazanmış Raman Salehi, gümüş medal sahibi Lamiyə Vəliyevanı və bürünc mükafatçı Səid Nəcəfzadəni səmimi-qəlbdən təbrik edirəm! Milli yığmamıza yeni qələbələr və nailiyyətlər arzulayıram!"

Azərbaycan.- 2021.- 1 sentyabr.- S.1.